Asiya və Avropa arasında ən qısa körpünüz

# 2024




ASCO 1858




# KORPORATİV KATALOQ

www.asco.az

Asiya və Avropa arasında ən qısa körpünüz

www.asco.az

Facebook

YouTube

Telegram

X

LinkedIn




# HAQQIMIZDA

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzərdə ən böyük donanmaya və ən qədim tarixə malik gəmiçilik şirkətidir. Əsası 1858-ci il may ayının 21-də “Qafqaz və Merkuri” Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti Prezident İlham Əliyevin 22 oktyabr 2013-cü il tarixli Sərəncamına əsasən ölkədə fəaliyyət göstərən iki böyük donanma – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkili yolu ilə yaradılıb. Şirkət 2018-ci ildən ASCO brendi altında fəaliyyətini davam etdirir.

Hazırda ASCO gəmiləri Xəzər dənizi ilə yanaşı, beynəlxalq sularda da istismar olunur.


ABS
Marine Health, Safety, Quality, Environmental & Energy Management
Certificate of
COMPANY COMPLIANCE
This is to Certify that the Management System implemented by
AZERBAIJAN CASPIAN SHIPPING COMPANY


LRQA
Certificate of Approval
Azerbaijan Caspian Shipping Closed Joint Stock Company
ISO 37001:2016

## ASCO aşağıdakı sertifikatlara sahibdir və müvafiq konvensiyaların tələblərinə cavab verir:

- **ISO 9001:2015** (Keyfiyyətin idarə edilməsi)
- **ISO 14001:2015** (Ekoloji idarəetmə)
- **ISO 50001:2011** (Enerji səmərəliliyinin idarə edilməsi)
- **ISO 45001:2018** (Sağlamlıq və təhlükəsizlik idarəetmə sistemi)
- **ISO 37001:2016** (Antikorrupsiya idarəetmə sistemi)
- **ISM code 2010** (Təhlükəsizliyin beynəlxalq idarəetmə sistemi)
- **SOLAS** (Dənizdə həyat təhlüksəsizliyi üzrə Beynəlxalq Konvensiya)
- **MARPOL** (Dənizin çirklənməsi əleyhinə Beynəlxalq Konvensiya)
- **STCW** (Təlimləndirmə standartları, Sertifikatlaşma və Növbəçəkmə üzrə Beynəlxalq Konvensiya)

**2022-ci ildə KPMG şirkəti ilə birgə Gəmiçiliyin 2022-2030-cu ilədək strategiyası hazırlanıb. Müşahidə Şurası strategiyanı konseptual olaraq məqbul hesab edib.**



# Missiya

Beynəlxalq yüklərin ahəngdar və fasiləsiz axınının təmin edilməsi və Azərbaycanın regional nəqliyyat qovşağı strategiyasına töhfə verilməsi

- Keyfiyyətli xidmət
- Etibarlı tərəfdaş
- Təhlükəsizlik və ətraf mühit
- Dayanıqlı inkişaf
- Şəffaflıq
- Ədalətlilik və peşəkarlıq




# Gələcəyə baxış

Səmərəli fəaliyyət göstərən, dayanıqlı inkişafını və əməliyyatların təhlükəsizliyini təmin edən müasir gəmiçilik şirkətinin qurulması, Xəzərdə dövlət siyasətinin dəstəklənməsi ilə bərabər Xəzərdən kənarda beynəlxalq gəmiçilik fəaliyyətinin genişləndirilməsi



- Xəzər hövzəsində 165 illik təcrübə
- 7000-dən çox personal (onlardan 5000-dən çoxu üzən heyətdir)
- 244 gəmi (15-dən çox müxtəlif təyinatlı)
- 2 gəmi təmiri və tikintisi zavodu (1500-dən çox personal)
- Azərbaycan Dövlət Dəniz Akademiyası
- Təlim-Tədris Mərkəzi
- Azərbaycan Dənizçilik Kolleci
- "ASCO Mühəndislik" MMC
- Yük limanı infrastrukturu

FitchRatings

2022-ci ildə "Fitch Ratings" tərəfindən ASCO-nun biznes modeli təhlil edilmiş, ASCO-nun likvidliyi və öz kredit öhdəliklərini yerinə yetirmək qabiliyyətinin dayanıqlı olduğu müəyyənləşdirilmişdir.

# TARİXİMİZ




**1858** "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə Xəzər Dəniz Gəmiçiliyinin əsasının qoyulması

**1866** "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin Bakıda mexaniki zavodunun bünövrəsinin qoyulması

**1873** Dünyada ilk neftdaşıyan "Aleksandr" barjının Xəzər dənizində istismara verilməsi

**1878** Dünyada ilk tankerin ("Zoroastr") Xəzər dənizində istismara verilməsi

**1881** Donanmanın kadrlara olan tələbatını ödəmək məqsədilə Bakı dənizçilik siniflərinin təşkili

**1903** İlk daxiliyanma mühərrikli "Vandal" gəmisinin Xəzər dənizində istismara verilməsi

**1908** İlk reversivli iki mühərriklə çalışan "Delo" gəmisinin Xəzər dənizində istismara verilməsi

**1949** "Azərneft" birliyinin tərkibində "Üzən vasitələr" idarəsinin yaradılması ilə Xəzər Dəniz Neft Donanmasının təməlinin qoyulması

**1960** Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilərin Volqa - Balt kanalı vasitəsilə dünya sularına çıxması

**1962** Xəzərdə ilk gəmi-bərə keçidinin istifadəyə verilməsi (Bakı-Türkmənbaşı)

**1966** Dünyada ilk nəhəng katamaran tipli kran gəmisinin ("Koroğlu") Xəzərdə istismara verilməsi

**1975-1985** Nəqliyyat donanması üçün yeni tankerlərin, universal quru yük gəmilərinin və bərələrin alınması və tikintisi

**1980** Neft donanması üçün yeni gəmilərin tikilməsi və bu donanmanın zənginləşməsi dövrü

**2004** Xəzərdə ilk 13000 tonluq tankerin ("Prezident Heydər Əliyev") istismara verilməsi

**2013** Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilməsi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin yaradılması

**2018** "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "ASCO" brendi altında fəaliyyətə başlaması

**2019**
- İlk milli istehsalımız olan tankerin - "Laçın" gəmisinin istismara verilməsi

**2021** Ro-Pax tipli "Azərbaycan" gəmi bərəsinin istismara verilməsi
- ASCO-nun yeni inzibati binasının açılışı
- Dünyada ilk tanker muzeyin istismara verilməsi
- "Kəlbəcər" tankerinin istismara verilməsi

**2022** Ro-Pax tipli "Zərifə Əliyeva" gəmi bərəsinin istismara verilməsi
- "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi
- "ASCO istiqrazları"nın təqdimatı
- "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda tikilən "ASCO-1" yedək gəmisinin istismara verilməsi

**2023** Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100, Azərbaycanda gəmiçiliyin yaradılmasının 165 və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 10 illiyinə həsr olunmuş tədbir
- "Aframax" tipli tankerlərin ("Qarabağ", "Şuşa" və "Zəngəzur") istismara verilməsi

ASCO

# Nəqliyyat donanması



ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının tərkibi tanker, universal quru yük gəmisi, bərə, Ro-Pax və Ro-Ro tipli 52 gəmidən ibarətdir. Xəzərdə ən böyük daimi donanmaya malik olan ASCO 2014-cü ildən beynəlxalq sularda da fəaliyyətini bərpa edib.




**Biz Xəzər, Qara, Aralıq və Azov dənizi** hövzələrində təkcə quru yük deyil, maye daşımaları da həyata keçiririk.

## Nəqliyyat Donanmasının tərkibi 52 GƏMİDƏN İBARƏTDİR

- **21** Tanker gəmisi
- **13** Bərə gəmisi
- **14** Quru yük gəmisi
- **2** Ro-Pax gəmisi
- **2** Ro-Ro gəmisi

## İllik yükdaşıma potensialı

**Xəzərdə:**
Tanker – 8.7 mln ton
Quru yük – 0.6 mln ton
Bərə – 98,000 (dəmiryolu vaqonu və TIR)

**Xəzərdən kənarda:**
Tanker – 1.6 mln ton
Quru yük – 0.8 mln ton






## YENİ LAYİHƏLƏRİMİZ

ASCO-nun sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda (BGZ) Ro-Pax tipli “Azərbaycan” və “Zərifə Əliyeva” unikal gəmi-bərələri, eləcə də “Laçın”, “Kəlbəcər”, “Akademik Xoşbəxt Yusifzadə”, “Zəngilan” adlı yeni nəsil tankerləri inşa olunub.

Hazırda BGZ-də 1 ədəd 8 min tonluq tankerin və 1 ədəd Ro-Pax tipli gəmi-bərənin tikintisi isə davam edir.



# “Aframax” haqqında

SOCAR və ASCO-nun Müşahidə Şurasının razılığı ilə paritet əsaslarla Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçərək yaradılan “SA Maritime AFEZCO” Birgə Müəssisəsi 2023-cü ildə hər birinin dedveyti təxminən 115,000 tona malik 3 ədəd “Aframax” tipli tanker alıb.

## “Aframax” tipli “Şuşa” tankeri

| | |
|---|---|
| Dedveyti | **113,838 ton** |
| Suya oturumu | **15,02 metr** |
| Uzunluğu | **249,90 metr** |
| Eni | **44 metr** |
| Bortunun hündürlüyü | **20,65 metr** |





## “Aframax” tipli “Qarabağ” tankeri

| | |
|---|---|
| Dedveyti | **114,516 ton** |
| Suya oturumu | **14,80 metr** |
| Uzunluğu | **242,24 metr** |
| Eni | **44 metr** |
| Bortunun hündürlüyü | **21,20 metr** |

## “Aframax” tipli “Zəngəzur” tankeri

| | |
|---|---|
| Dedveyti | **107,507 ton** |
| Suya oturumu | **14,57 metr** |
| Uzunluğu | **243,8 metr** |
| Eni | **42 metr** |
| Bortunun hündürlüyü | **21,30 metr** |





# Əsas yükdaşıma marşrutlarımız

## Quru yük daşımaları marşrutu

İtaliya / Yunanıstan / Rumıniya / Gürcüstan
Azərbaycan / Qazaxıstan / Türkmənistan / İsrail

## Bərə və Ro-Ro daşımaları marşrutu

Ələt / Kurık / Türkmənbaşı

## Maye yük daşımaları marşrutu

Sənqəçal / Dübəndi / Aktau
Alaca / Kianlı / Okarem
Türkmənbaşı / Konstanta
Varna / Braila / Kulevi / Batumi
Poti / Samsun / Eregli / Gebze / Perama



# İxtisaslaşdırılmış donanma




## Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Neft Donanması dənizdə neft və qaz istehsalı proseslərinə xidmət edən gəmilərdən ibarətdir:


21
Kran gəmisi


23
Sərnişin gəmisi


21
Lövbərdaşıyan təchizat-yedək gəmisi (AHTSV)


4
Təchizat gəmisi (PSV)


3
Yedək gəmisi


8
Liman-yedək gəmisi


10
Dalğıc gəmisi


5
Yanğınsöndürən gəmi


2
Torpaqqazan gəmi və karvanı


5
Barj


5
Mühəndis geoloji gəmi


2
Sualtı borudüzən gəmi


12
Maye yükdaşıyan gəmi (tankerlər)


5
Gəmi təmiri emalatxanası


1
Gəmi muzey

5
Tullantı daşıyan

24
Xidmətçi kater

34
Yedək katerləri



# Gəmi təmiri

## ASCO geniş həcmdə peşəkar gəmi təmiri, tikintisi və dəniz mühəndislik xidmətləri təqdim edir.

Yüksəkixtisaslı mütəxəssislərin peşəkarlığı ilə bu sahədəki təcrübəmizin vəhdəti bizə hər növ mürəkkəb təmir və tikinti işləri və əməliyyatların yerinə yetirilməsinə imkan verir.

Üzən tərsanə və sahildə təmir imkanlarına malik olan “Bibiheybət” və “Zığ” Gəmi Təmiri və Tikintisi zavodları bütün növ gəmiləri yüksək keyfiyyətlə təmir edir.

**“Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda tikilməkdə olan gəmilər:**
“Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu 2017-ci ildə Dövlət Dəniz və Liman Agentliyi və registr təşkilatı tərəfindən müvafiq sertifikatlaşmadan keçərək, ASCO üçün kiçik su tutumlu gəmilərin tikintisinə başlayıb. Burada tikilən 6 ədəd katerdən 2-si artıq istismara verilib.

**“Zığ” Gəmi Təmiri və Tikintisi Zavodundakı təmir tərsanələri**

| Tərsanənin adı | Tərsanənin qaldırma imkanı (ton) |
|---|---|
| Neptun | 8,000 |
| Üzən tərsanə № 061 | 6,000 |






## Gəmi təmiri xidmətlərinə daxildir:

- Gəmilərin tərsanəyə qaldırılması, yoxlanılması, sualtı səthinin, sükanın və vintlərin təmizlənməsi və rənglənməsi;
- Gəmi sistemlərinin, avadanlıqlarının və cihazlarının sazlanması və təmiri;
- Elektrik və radionaviqasiya avadanlıqlarının təmiri və sazlanması;
- Mühərrik və avadanlıqların quraşdırılması və təmiri;
- Dalğıc, su altında mühəndislik və hidro-texniki işləri;
- Hava ilə doldurulan xilasetmə sallarının, hidrostatik ayırıcı qurğuların, fərdi xilasetmə vasitələrinin yoxlanılması və təmiri;
- Digər növ texniki xidmətin göstərilməsi.

**“Bibiheybət” Gəmi Təmiri Zavodundakı təmir tərsanələri**

| Tərsanənin adı | Tərsanənin qaldırma imkanı (ton) |
|---|---|
| Yusif İbrahimov (dokNº901) | 15000 |
| K-1 (dokNº351) | 6000 |
| Dok Nº 953 | 5000 |
| Dok Nº 806 | 4500 |

“ZIĞ” GƏMİ TƏMİRİ VƏ TİKİNTİSİ ZAVODU

“BİBİHEYBƏT” GƏMİ TƏMİRİ ZAVODU



# Layihələr

ASCO-nun Xəzər dənizində ən ağır yükqaldırma qabiliyyəti olan “Azərbaycan” kran gəmisi və “STB-1” barjı **Abşeron, Azəri-Mərkəzi-Şərqi** və digər neft-qaz layihələrində iştirak edir.





Ən müasir boruçəkmə sistemi ilə təchiz olunan “İsrafil Hüseynov” gəmisi **Azəri-Mərkəzi-Şərqi və Şahdəniz-2** layihələri çərçivəsində boru xətlərinin çəkilişinə cəlb edilib.





“Mühəndis Balarza Məmmədov” və “Narva” gəmiləri Xəzərin müxtəlif sektorlarında dibdərinləşdirmə işləri aparır.



# Təhsil və təlim



## AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

- Beynəlxalq Dəniz Təşkilatı (IMO) tərəfindən tanınır
- Dənizçilik təhsili sahəsində 130 ildən çox təcrübə
- 2 fakültə və 7 kafedra (bakalavr, magistratura və doktorantura)
- Zəngin pedaqoji təcrübəyə malik elmlər doktorları, professorlar və dosentlər
- Azərbaycan, rus və ingilis dilində tədris
- Azərbaycan Dövlət Dəniz Akademiyasının verdiyi diplom və sertifikatlar dünyanın 170 ölkəsində tanınır







## Fakültələr:

1. Gəmi sürücülüyü
2. Gəmi mexanikası və elektromexanikası

## İxtisaslar: (Bakalavriat)

1. Dəniz naviqasiyası mühəndisliyi
2. Gəmiqayırma və gəmi təmiri mühəndisliyi
3. Elektrik və elektronika mühəndisliyi
4. Gəmi energetik qurğularının istismarı mühəndisliyi

## İxtisaslar: (Magistratura)

1. Gəmiçilik və gəmilərin idarə edilməsi
   *İxtisaslaşma: Gəmilərin hərəkətinin idarə edilməsi*
2. Dəniz texnikası və texnologiyası mühəndisliyi
   *İxtisaslaşma: Gəmiqayırma / Gəmi təmiri*
3. Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi
   *İxtisaslaşma: Gəmi energetik qurğuları və onların istismarı*
4. Elektrik mühəndisliyi
   *İxtisaslaşma: Gəmilərin elektroenerji sistemləri*

## İxtisaslar: (Doktorantura)

1. Gəmiçilik və su nəqliyyatının istismarı
2. Gəmiqayırma və gəmi təmiri texnologiyası
3. Gəmiçilik texnikası



# Təhsil və təlim

# AZƏRBAYCAN DƏNİZÇİLİK KOLLECİ

Gəmi sürücülüyü

Gəmi energetik qurğularının istismarı

Gəmilərin təmiri

Elektrik təchizatı (su nəqliyyatında)





## TƏLİM-TƏDRİS MƏRKƏZİ

Təlim-Tədris Mərkəzində gəmi heyəti üzvləri və dəniz obyektlərində çalışan mütəxəssislər üçün Dənizçilərin Hazırlanması, Sertifikatlandırılması və Növbə Çəkmələri haqqında Beynəlxalq Konvensiyanın (DHSNÇ-78) və ona edilmiş əlavələrin tələblərinə uyğun olaraq, xüsusi proqramlar üzrə hazırlıq kursları keçirilir.

Mərkəzdə dənizçilərin ekstremal dəniz şəraitində qeyri-standart vəziyyətlərə hazırlıq, təhlükə qarşısında davranış qaydaları, fövqəladə halların idarə edilməsi üzrə nəzəri bilik və təcrübələrinin artırılması üçün hər bir şərait yaradılıb.

Müasir trenajorların istifadəsi, Dinamik Mövqe Saxlama Simulyatoru, “Qlobal Dəniz Fəlakət və Əmniyyətli Rabitə Sistemi” (QDFƏRS), radar müşahidə vasitələri, elektron xəritə displeyi və informasiya sistemləri trenajorları təcrübəçilərə gəmi əməliyyat bacarıqlarını inkişaf etdirməyə və təhlükəsiz istismar qaydalarını dərindən mənimsəməyə imkan yaradır.

Dənizçilərin və dəniz xidmətləri ilə məşğul olan personalın təhlükəsizliyinə dair yüksək keyfiyyətli dəniz təhsili və simulyator təlim xidmətləri təmin edilir.

Proqrama mütəxəssislər üçün sürətli xilasetmə qayıqları təlimləri də daxildir.



Mərkəzdə keçirilən tədris proqramları Beynəlxalq Dəniz Təşkilatının (IMO) standartlarına tam uyğundur.



# Yaşıl dünya naminə həmrəylik

ASCO-nun KSƏTƏMM siyasəti – işçilər, müştərilər və podratçılar üçün ətraf mühitin mühafizəsi də daxil olmaqla, sağlam və təhlükəsiz şəraitin yaradılmasına yönəlib.

ASCO-da dayanıqlı inkişaf siyasətinin davamlı yenilənməsi məqsədilə Ekoloji Sosial İdarəetmə (ESG) əlaqələndirmə qrupu təşkil olunub.




**ESG-nin Tədbirlər Planı:**

- Emissiyaların azaldılması məqsədilə gəmilərdə konstruktiv dəyişikliklərin və innovasiyaların tətbiqi
- Gəmilərdə yanacaq səmərəliliyi istiqamətində fəal iştirak edən gəmi heyəti üzvlərinin mükafatlandırılması
- Ekoloji cəhətdən təmiz olan elektrik nəqliyyat vasitələrinə tədricən keçid
- Alternativ enerji mənbəyi kimi günəş panellərinin istifadəsinin pilot layihə şəklində tətbiqi
- Şirkətdaxili su istehlakının optimallaşdırılması
- İşçilərə sosial dəstəyin təkmilləşdirilməsi
- Emissiyaların rəqəmsal panelə çıxarılaraq izlənməsi sisteminin yaradılması
- Emissiyaların inventarlaşdırılması ilə bağlı ISO 14060 və digər standartların tətbiqi, müvafiq sertifikatlaşdırılmanın aparılmasının təmin olunması və s.

ASCO ölkədə yüksək keyfiyyətli ekoloji mühitin yaradılması istiqamətində həyata keçirilən tədbirlərə töhfə verir







Biz həmçinin sahilyanı ərazilərin məişət tullantıları ilə çirklənməsinin qarşısının alınmasına, Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılması təşəbbüslərinə dəstək oluruq.





# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

Beynəlxalq standartların tələblərinə uyğun olaraq müvafiq prosedurlar və sənədlər hazırlanaraq ASCO-nun idarəetmə sistemində tətbiq edilib. Bundan əlavə, ASCO 32 aspekt əsasında bütün ətraf mühitə təsirlərini qiymətləndirmiş və həmin aspektlərdən 5-i mühüm, 27-si isə orta səviyyədə müəyyən edilib.



## SU

**Gəmiçilikdə su sərfiyyatı**

2021 – 292 min m3
2022 – 482 min m3
2023 – 426 min m3

## ENERJİ

**Donanmaların fəaliyyəti zamanı istifadə olunmuş yanacağın miqdarı**

**Dizel**

2021 – 45290 ton
2022 – 71403 ton
2023 – 62695 ton

**Ağır yanacaq**

2021 – 26928 ton
2022 – 5563 ton
2023 – 1899 ton

**ASCO-nun sərf etdiyi elektrik enerjisi**

2021 – 26675 kv/saat
2022 – 27724 kv/saat
2023 – 23368 kv/saat

**ASCO-nun sərf etdiyi təbii qaz**

2021 – 908 min m3
2022 – 946 min m3
2023 – 847 min m3

## EMİSSİYALAR

Emissiyaların idarə edilməsi ilə bağlı 1 yanvar 2023-cü ildən BDT-nin və Avropa Birliyinin Ölçmə, Hesabatlılıq və Verifikasiyaya (Aİ MRV) dair qaydalarına gəmilərdə tətbiqi zəruri olan Karbon İntensivliyi Göstəricisinə (CII indeksi) və onun hesablanma metodologiyasını əhatə edən "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"na III hissənin əlavə olunmasına dair tələblərin tətbiqinə başlanıb.

Hər iki tələbin məqsədi gəmilərdən yaranan karbon emissiyalarının azaldılması istiqamətində gəmiçilik şirkətlərini tədbirlər görməyə təşviq etməkdir. Hazırda BDT-nin tələblərinə uyğun olan "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"nın III hissəsi 5000 tondan yuxarı və beynəlxalq sularda üzən gəmilərə, Aİ MRV qaydalarına uyğun hazırlanan planlar Avropa limanlarına daxil olan gəmilərə şamil edilir. Buna uyğun olaraq, ASCO-nun 31 gəmisinə CII əhatə edən "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"na III hissə, 5 gəmisinə CII və Aİ MRV-yə dair tələbləri əhatə edən planlar verilib.

**CO2 emissiyalarının göstəriciləri (birbaşa)**

2021 – 231 887 ton
2022 – 291 614 ton
2023 – 246 255 ton

**CO2 emissiyalarının göstəriciləri (dolayı)**

2021 – 13 ton
2022- 12.7 ton
2023 – 12.5 ton

## Təkrar emal

**Qara metal**

2021 – 7298,5 ton
2022 – 8826,2 ton
2023 – 655 ton

**Əlvan metal**

2021 – 14,9 ton
2022 – 12,4 ton
2023 - 2,75 ton

**Plastik**

2021 – 1,18 ton
2022 – 0,72 ton
2023 – 1,32 ton

**İşlənmiş kağız**

2021 – 2,74 ton
2022 – 1,32 ton
2023 – 1,29 ton




# ASCO-da Korporativ idarəetmə

Kollektivin hər bir üzvünün sağlamlığı, onların asudə vaxtlarının səmərəli keçirilməsi bizim üçün vacib məsələlərdəndir.

Gəmiçilikdə gender bərabərliyi və inklüzivliyin təmin olunması isə diqqət yetirdiyimiz əsas məqamlardandır.

Biz əməliyyatların təhlükəsiz aparılmasına və ətraf mühitə təsirinin nəzarətdə saxlanılmasına, enerji səmərəliliyinin artırılmasına, əməkdaşlarımızın sosial rifahının yaxşılaşdırılmasına, hüquqlarının təminatına yönəlik qabaqcıl tələblərə cavab verən korporativ idarəetmənin tətbiqinə xüsusi diqqət ayırırıq.









# Korporativ Sosial Məsuliyyət









SURAXANI GƏMİ-MUZEY

## “Suraxanı” - dünyanın ilk tanker-muzeyi

“Suraxanı” tankerinin muzeyə çevrilməsi ilə bağlı qərar 2017-ci ildə verilib.

2021-ci il martın 1-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə muzeyin açılış mərasimi keçirilib.

Muzeyin zallarında ən müasir texnoloji avadanlıqlardan istifadə edilməklə, bir sıra innovativ yeniliklərə imza atılıb.

Muzeydə bu günə qədər bir sıra tarixi, mədəni və sosial layihələr həyata keçirilib.



**“Xəzərin irsi”**
unikal sualtı arxeologiya sərgisi



**“Mədəniyyət körpüsü”**
beynəlxalq rəsm sərgisi

# Heydər Əliyev-100



Dənizçilərə yeni mənzillərin açarları təqdim olunub




"Əbədi sevgi" konserti




Vətən müharibəsinin dənizçi döyüşçüləri "Heydər zirvəsi"ndə



"Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti"

# ASCO filmlər




20 yanvarda doğulanlar




Üç əsrə şahid







## "Xəzər" Yelkənli Qayıqlar İdman Klubu

ASCO-nun "Xəzər" Yelkənli Qayıqlar İdman Klubu 2014-cü ildə yaradılıb. Klubun fəaliyyəti yelkən idmanı ilə məşğul olanların həyat və sağlamlıqlarının qorunması, fiziki hazırlıqlarının inkişafı, yelkən idmanı sahəsində ustalıqlarının artırılması prinsipləri əsasında qurulub. Bu klubun idmançıları dəfələrlə müxtəlif yerli və beynəlxalq yarışların qalibi olublar.

## "Səbail" Peşəkar Futbol Klubu

ASCO futbol idman növünün inkişafına dəstək məqsədilə müvafiq müqavilə əsasında, gənc və perspektivli komanda yaratmış və ölkəmizi beynəlxalq yarışlarda təmsil etməyi hədəfləmiş "Səbail" Peşəkar Futbol Klubuna himayəçilik göstərir.



Asiya və Avropa arasında ən qısa körpünüz

**Əlaqə:**
Azərbaycan Respublikası,
Bakı şəhəri, Mikayıl Useynov 2
Tel.: (+994 12) 404 37 00
Fax.: (+994 12) 404 38 00
E-mail: contact@asco.az
www.asco.az